UOT: 351.85
https://doi.org/10.59849/2311-8482.2025.4.113

NAİLƏ SÜLEYMANOVA*

# İSLAM HÜQUQUNA DAİR ƏSƏRLƏRİN NADİR ƏLYAZMA NÜSXƏLƏRİ

*Əlyazma əsərlər hər bir ölkənin tükənməz sərvətidir. İstər yazılma tarixi, istərsə də məzmunu fərqli olan bu əlyazma əsər nüsxələri heç bir zaman dəyərini itirmir və əksinə olaraq ən maraqlı və elmi araşdırma obyekti olaraq maraq doğurur.*

*İslam hüququna dair müsəlmanların yaşadıqları bütün ərazilərdə müxtəlif dillərdə bu gün də öz elmi əhəmiyyətini itirməmiş cox saylı qiymətli əsərlər yazılmışdır. Bu əsərlərdən bir çoxu əlyazma şəklində günümüzə qədər gəlib çatmış və dünyanın birçox məşhur əlyazma kitabxana və institutlarda mühafizə edilir. Belə məkanlardan biri də AMEA Füzuli adına Əlyazmalar İnstitutudur. Biz bu məqalədə məhz AMEA Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən islam hüququna dair ərəb, fars və türk dillərində yazılmış əsərlərin nadir və nəfis nüsxələrindən bəhs ədəcəyik. Əlbəttə ki, bu əsərlər islam hüququ sahəsində böyük elmi əhəmiyyətə malik olub, orta əsrlərin görkəmli alimlərinin nəzərə çarpan nadir elmi tədqiqat nümunələridir. Digər tərəfdən isə tədqiqata cəlb etdiyimiz əlyazmalar, paleoqrafik xüsusiyyətlərinə görə də əlyazma kitab sənətinin nəfis nüsxələri kimi ayrıca bir dəyər kəsb edir.*

*Unutmamaq lazımdır ki, Azərbaycanın görkəmli alimləri Orta əsrlərdən başlayaraq, xalqın maarifi və həyat tərzi ilə möhkəm bağlı olan islam hüququna bir elm sahəsi kimi böyük maraq göstərmiş, onun tədqiqi ilə məşğul olmuşlar. Azərbaycanlı alimlər islam hüququnun müxtəlif məktəblərini əhatə edən əsərlər yazmaqla, islam hüququnu bir elm sahəsi kimi zənginləşdirərək, inkişafında qiymətli xidmtələr göstərmişlər.*

***Açar sözlər:** Azərbaycan, əlyazma, nəfis, nüsxə, hüquq*

## Giriş

Azərbaycan dəyərli əlyazma əsərləri ilə zəngin əlm və mədəniyyət mənbələrinə sahib olan bir ölkədir. Bu əlyazma əsərlərin əlmi-paleoqrafik dəyərini tədqiq edərək, onları geniş istifadə üçün təqdim etmək mühüm bir işdir. Orta əsrlərdən başlayaraq, Azərbaycanın ayrı-ayrı bölgələrində əlyazma kitab sənəti ilə məşğul olan çoxsaylı katib, xəttat, rəssam, müzəhhib cildçilər fəaliyyət göstərmişlər. Bu peşə sahiblər əlyazma kitabları saray kitabxanalarında, mədrəsələrdə, məscidlərdə və evlərdə hazırlamaqla məşğul olurdular (Şərifli 2001, 9).

Hal-hazırda Azərbaycan Milli Elimlər Akademiyasının Füzuli adına Əlyazmalar İnstitutunda istər Azərbaycan, istərsə də digər Şərq ölkələrinin mədəniyyət tarihinin ögrənilməsi baxımından son dərəcə dəgərli əlyazma əsərlər qorunmaqdadır. Azərbaycanlılar asırlar boyu ərəblərlə və farslarla sıx ədəbi və mədəni əlaqədə olması və müştərək İslam mədəniyətinin yaranması, Azərbaycanda bu xalqların dilində əlyazma əsərlərin nüsxələrinin mövcudluğu təbii bir haldır. VII əsrın ikinci yarısından başlayaraq, Azərbaycan alimləri fərqli eli sahələrində əsərlərini ərəb dilində yazmışlar (Mahmudov 2006, 6). Lakin, sovet dövründə ateizm siyasəti nəticəsində islam dini, arap dili ilə bağlı olan , hətta ərəb əlifbası ilə ana dilimizdə yazılmış elm və mədəniyətimizin köklü əlyazmaları və əski çap kitaplarının böyük bir hissəsi yandıraraq yox edilmişdir. Bu dövrdə xalq şəxsi kitabxanalarının əlyazma əsərlərini məhv edilməkdən qorumaq için torpağa basdırmışlar vəya evlərin divarlarınanın içinə hörərək gizlətmişlər. Bu günə qədər hələ də, Azərbaycanın müxtəlif bölgələrində torpaqlara basdırılmış əlyazma kitablara rast gəlmək olar.

Buna baxmayaraq, 1940-cı ildə Sovet dövləti əlyazma kitabların bir yerə toplanması işinə başlanmışdır. Azərbaycanın fərqli bölgələrindən ayrı-ayrı şəxslərdən və kitabxanalardan əlyazmalar toplanaraq günümüzə qədər gəlib çatmışdır. İlk öncə 1940-cı illərdə Nizami adına Ədəbiyyat müzeyinə, daha sonra isə 1950-ci ildə müstəqil bir kitabxana yaradılmışdır. 1986-cı ildə kitabxanaya Fuzuli adına Əlyazmalar İnstitüsü ismi verilmiş və o tarixtən etibarən bu isimlə faaliyətini davam etdirir. İnstitünün fəaliyyət göstərdiyi bina 1918-ci ilədək Hacı Zeynalabidin Tağızadənin 1901-ci ildə Müsəlman qızların təhsili üçün inşa etdirdiyi yatılı məktəbi olmuştur.

## İslam hüququna dair nadir əlyazma əsər nüsxələri

Füzuli adına Əlyazmalar İnstitutunda Türk, Arab, Fars, Rus dilləri başda olmakla tibb, fəlsəfə, ədəbiyyat, dilçilik, astronomiya, riyaziyyat, həndəsə,məntiq, tarix, coğrafiya və islam ilahiyyatına dair əsərlərin əlyazma və əski çap kitabları, Azərbaycan`da yaşamış məşhur şəxslərə aid olan məktub

və sənədlərin toplam 40 minə yakın nüsxələri mühafizə edilir. Biz araşdırmamızda islam hüququna dair çox nadir və böyük ustalıqla hazırlanan əlyazma əsərlər rast gəldik. Ayrı-ayrılıqda bu nüsxələr Azərbaycanda tədqiq edilməmişdir. Bu səbəbdən onlar haqqında qısa məzmunlu məlumatla siyahısını tərtib edərək gənc tədqiqatçılara yol göstərmək istərdik:

**1. "Məcmua əl-bəhreyn və multəqa neyyireyn" (مجمع البحرين و ملتقى نيّرين)**

Əsərin müəllifi Müzəffərəddin Əhməd bin Əli bin Təğlib ibn əs-Saati əl-Bağdadi məşhur alim olub, hicri 651-ci (m.1254) ildə Bağdadda anadan olmuşdur. Təhsilini Bağdadda fiqh, üsul, kəlam,ərəb dili və ədəbiyyatı kimi elmi sahələrdə almış və sonralar Müstansiriyyə və Müvəffəqiyyə mədrəsələrində dərs vermişdir. Alim hicri 694-cü (m. 1295) ildə Bağdadda vəfat etmişdir. Onun "Məcmua əl-bəhreyn və multəqa neyyireyn" adlı əsəri Hənəfi hüquq məktəbinin önəmli əsərlərdən biri olub, 30 yaxın şərhi vardır. Alimin mənbələrdə "Nihayət əl-vusul ilə ilm əl-usul" adlı digər əsərinin olduğu haqqında da məlumat verilir (10, I,175; 6, XXI, 192-194). Əlyazmalar İnstitutunda "Məcmua əl-bəhreyn və multəqa neyyireyn" adlı əsərin ərəb dilində iki nüsxəsi qorunmaqdadır. Tam mətnli nüsxə, hicri 857-ci ilin ramazan ayında (m.1453 sentyabr) Məhəmməd bin Mövla İlyas bin Mövla Xalıd tərəfindən köçürülmüşdür. Abidə ciddi nəm çəkməsinə baxmayaraq, rahatlıqla oxunulur. Əvvəldən naqis olan əlyazma hicri 747-ci (m.1346) ildə köçürülmüşdür. Nüsxə ciddi nəm çəkmiş və vərəqlər ləkələndiyi üçün çətinliklə oxunulur.

**2. Cami\`u ər-rumuz (جامع الروموز)**

Əsərin müəllifi Şəmsəddin Məhəmməd bin Husaməddin əl-Quhustani (v.962/1555) hənəfi fəqihi olub, Xorasanın Quhistan qəsəbəsində anadan olmuşdur. Hicri 962-ci (m.1555) ildə Buxarada vəfat etmişdir. Alimin "Câmi\`u ər-rumûz" ,"Câmiʿu əl-məbânî li-məsâʾili" və"Ḥâşiye alə əl-fəvâid" adlı əsərləri vardır (6 XXVI, 348). Tədqiq etdiyimiz əsər Hənəfi məzhəbinin mötəbər kitablarından biri olan Tacüşşərianın "Viqāyə ər-rivâyə" əsəinə Sədüşşəriənin yazdığı mühtəsərin şərhidir.

Əlyazmalar İnstitutunda əsərin üç nüsxəsi mühafizə edilir. Bu nüsxələrdən ən qədimi qara mürəkkəblə nəstəliq xətti ilə Şərq istehsalı olan ağ saya ahələnmiş kağızda ərəb dilində hicri 941 (m.1534) -ci ildə Həsən Əfəndi tərəfindən yazılmışdır. İkinci nüsxə qara mürəkkəblə nəsx xətti ilə Şərq istehsalı olan ağ saya kağızda ərəb dilində yazılmışdır. Ciddi nəm çəkmiş, vərəqləri cırılmış əlyazmanın bütün vərəqlərində vəqf möhürü (Nurbala ibn Budaq) basılmışdır. Üçüncü nüsxə isə qara mürəkkəblə iri nəsx xətti ilə Şərq istehsalı olan ağ saya kağızda ərəb dilində yazılmışdır. 1a-3b vərəqində fehrist tətib edilmişdir. Dərkənarlarda müxtəlif istiqamətli şərhlər vardır 4b vərəqində çox maraqlı vəqf qeydi vardır. Qeydə görə bu əlyazma Şəki xanı Məhəmməd Həsən xan ibn Hüseyn xan satılmamaq şərti ilə övladlarına və sonradan isə qohumlarına vəqf edilmişdir. Abidə Məhəmməd Əmin Molla Məhəmməd Zahid əl-Buxari tərəfindən hicri 1157-ci (m.1757) ildə köçürülmüşdür.

**3. Mültəqi əl-əbhur (ملتقى الابحر)**

Əsərin müəllifi İbrahim əl-Hələbi Osmanlı Dövlətində yaşamış Hənəfi fiqh limidir. Hələbdə anadan olan alim, Hələb və Qahirədə fiqh, təfsir, hədis və qiraət elmləri üzrə təhsil almışdır. Hicri 906-cı (m.1500) ildə İstanbula köçür və ömrünün sonunadək orada müxtəlif camilərədə imamlıq etmişdir. İbrahim əl-Hələbi hicri 956-cı (m.1549) ildə İstanbulda vəfat etmişdir.Mənbələrdə onun 20 yaxın əsəri olduğu haqqında məlumat verilir. Əsərlərdən "Multəqi əl-əbhur", "əl-Ḥilyət əş-şərifə", "Şərh əl-qasidət", "Risâlə fi əl-məsḥ" və s. əsərlərini misal göstərmək olar (6, XV, 231-232).

Əlyazma qara mürəkkəblə şikəstə-nəstəliq xətti ilə Şərq istehsalı olan noxudu rəngli yarımahərlənmiş kağızda ərəb dilində yazılmışdır. İlk vərəqdə əsərin fehristi tərtib edilmişdir. Əsər hicri 923-ci (m.1517) ildə yazılmışdır. Bu nüsxə isə hicri 1055-ci (m.1645) ildə Konstantiniyyə müəllif nüsxəsindən köçürülmüşdür.

**4. əz-Zəxira əl-burhaniyyə fi fətava (الذخيرة البرهانية فى الفتاوى)**

Əsərin müəllifi Mahmud Əbdüləziz bin Ömər bin Mazə əl-Buxari Hənəfi fəqihi və mücdəhidi olub, Buxarada yaşamışdır. Alimin ailəsində babası , əmisi və atasıda alim olmuşdur. Bir çox əsərlərin müəllifidir. Bu əsərlərdən "əl-Mühit", "əz-Zaxira əl-fətavə" , "Vəciz fi əl-fətavə" və s. əsərləri vardır.

Alim hicri 616-cı (m.1219) ildə vəfat etmişdir (6,VI, 375-376). Təqdim etdiyimiz əsər "əl-Mühit" əsərinin xülasəsidir.

Əlyazma qara mürəkkəblə narın sülüs xətti ilə Şərq istehsalı olan ağ rəngli ahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Bəzi ifadələrin altında qırmızı mürəkkəblə xətt çəkilmişdir. Nüsxə hicri 854-cü (m.1450) ildə Ömər bin Məhəmməd bin Ömər əl-Antaki tərəfindən köçürülmüşdür.

**5. Şərh məcmu əl-bəhreyn li ibn əs-Saati ( شرح مجمع البحرين لابن الساعاتى )**

Əsərin müəllifi hənəfi fiqh alimim olan ibn Mələk Əbdüllətif bin Əbdüləziz ibn Əminəddin (v.821/1418) Türkiyədə elm və mədəniyyət mərkəzi Tirə şəhərində anadan olmuşdur. İbn Mələk Tirədə mədrəsədə uzun illər dərs verdi və bu səbəblə mədrəsə onun adıyla məşhur oldu. İbn Mələk müxtəlif elmi sahələrdə çoxsaylı əsərlər qələmə almışdır. Məsələn, "Fəriştəoğlu lüğəti", "Şərh mənair əl-ənvar", "Şərh məcmu əl-bahreyn" və s. (10, I, s.175). Əlyazma alimin müəllifi Burhanüşşəriə Mahmud bin Sadrüşşəriə əl-Əvvəl olan "Viqayət ər-rivayə" adlı əsərinin ən mötəbər şərhlərindəndir.

Əlyazma qara mürəkkəblə şikəstə-nəstəliq xətti ilə Şərq istehsalı olan filiqranlı ahərlənmiş ağ saya rəngli kağızda ərəb dilində yazılmışdır. Kitab adları qırmızı mürəkkəblə qeyd olunmuşdur. Məşhur alim və kitabşünas olan Əbdülqəni Nüxəvinin kolleksiyasından olan nüsxə hicri 943-cü (m.1536) ildə əl-Hac Übeydullah bin Hac Cəmal tərəfindən köçürülmüşdür.

**6. Kitab əl-Fusul ( كتاب الفصول)**

Əsərin müəllifi Məhəmməd bin Mahmud əl-Usturuşəni (v.632/1235) dövrünün məşhur hənəfi fiqh alimlərindən olmuşdur. Məcidəddin alimin ləqəbi, Əbülfəth isə künyəsidir. Nisbəsi isə Səmərəqəndin Şərqində yerləşən yer adıdır. Mənbələrdə onun hənəfi fiqhinə dair bir çox əsərləri olduğu bildirilir.

Əlyazma qara mürəkkəblə narın nəsx xətti ilə Şərq istehsalı olan ağ saya ahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Mətn iki qırmızı mürəkkəblə çərçivəyə alınmışdır. Abidə Əbdülqəni ən-Nuxəvinin kolleksiyasından olub, hicri 1096-cı (m.1685) ildə Yaqub bin Məhəmməd tərəfindən köçürülmüşdür.

**7. Tənvir əl-əbsar və cami əl-bihar (تنوير الابصار و جامع البحار)**

Əsərin müəllifi Şəmsəddin Məhəmməd bin Abdullah Əhməd ət-Timurtaşi hənəfi fiqh alimi olun Qazzədə hicri 923-cü (m. 1517) ildə anadan olmuşdur. İlk olaraq Qazzədə oxumuş, sonralar isə Qahirəyə təhsilini davam etdirmək üçün getmişdir. Çox saylı əsərlər müəllifidir. Ən məşhur əsəri Hənəfi fiqhinə dair hicri 995-ci (m.1587) ildə yazdığı "Tənvir əl-əbsar və cami əl-bihar" adlı əsəridir. Həmçinin alimin "Risalə fi nuqud", "Risalə fi ən-nigah" ,"Risalə fi əl-vəqf" və s. əsərləridə vardır. ət-Timurtaşi hicri 1004-cü (m. 1595) ildə Qazzədə vəfat etmişdir (6,IX. 196).

Əlyazma qara mürəkkəblə narın şikəstə-nəstəliq xətti ilə Şərq istehsalı olan noxudu və mavi rəngli ahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Abidə Əbdülqəni ən-Nuxəvinin kolleksiyasından olub, hicri 1077-ci (m.1666) Əhməd bin Mustafa əl-Qazzı tərəfindən köçürülmüşdür.

**8. Zəxira əl-uqba (ذخيرة العقبى)**

Müəllif hənəfi fiqh alimi olan Əxi Çələbi Yusif bin Cüneyd ət-Toqadi (v.905/1500) Sultan II.Bəyazidin dövründə yaşamışdır. Əvvəl Əhməd Kırımlıdan, sonra isə Molla Səlahəddin və Molla Xosrovdan dərs almışdır. Uzun müddət İstanbul, Bursa və Ədirnədə mədrəsələrdə dərs vermişdir. Alim "Zəxira əl-uqba" adlı əsərini hicri 891-901 (m1486-1496) illər ərzində yazmışdır.(6, I, s.549) Əsər Sədrüşşəriə əs-Səni Ubeydullah bin Məsud Tacişşəriə Ömər əl-Məhbubi əl-Buxarinin (v. 747/1346) "Tənqih əl-üsul" adlı əsərinin haşiyəsidirə

Əlyazma qara mürəkkəblə sülüs xətti ilə Avropa istehsalı olan ağ saya kağızda ərəb dilində yazılmışdır. Şərh edilən ifadələrin üstündən qırmızı mürəkkəblə xətt çəkilmişdir. Abidə hicri 1046-cı (m.1636) ildə Əhməd bin Əhməd əl-Ğalbəvi tərəfindən köçürülmüşdür.

**9. Bəhr əl-fətava ( بحر الفتاوى )**

Müəllif Qazizadə Məhəmməd Əfəndi (v.1173/1759) Ərzurumda andan olmuş Osmanlı alimdir. Sultaniyyət mədrəsəsində dərs vermiş və Ərzurum qazısı olmuşdur. Hənəfi fiqhinə dair birçox əsərləri vardır. Bunlardan "Bahr əl-fətavi", "Risalə fi əl-vəd", "Risalət əs-səlamiyyə , "Risalər əs-Sadiyyə"və s. misal göstərmək olar ( 6, XXIV cilt,s.100-102)

Əlyazma qara mürəkkəblə narın nəstəliq xətti ilə Rusiya istehsalı olan ağ rəngli yarım ahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Başlıqlar, sual, cavab kimi sözlər qırmızı mürəkkəblədir. 231b vərəqində vəqf haqqında qeyd vardır. Abidə Məhəmməd vələdi Məhəmməd Əli tərəfindən övladlarına nüsxənin yazıldığı ildə, hicri 1255-ci (m.1840) ildə vəqf edilmişdir. Əlyazmanı Qarabağda Cavanşir mahalında Məhəmməd bin Məhəmməd Əli Əfəndi Qarabaği köçürmüşdür.

**10. Şərh risalə əs-sagair və əl-kəbair ( شرح رسالة الصغائر و الكبائر )**

Əsərin müəllifi İsmayıl bin Əli Sinan bin Məhəmməd bin Həsən əs-Sivasi XVII əsrdə yaşamış Xəlvəti şeyxlərindən biridir. Məndələrdə onun "Şərh risalə əl-vələdiyyə", "əl-İqaz", "Şərh Multəqa əl-əbhur" və s. əsərlərinin olduğu bildirilir ( 9, I, s.314).

Əlyazma qara mürəkkəblə şikəstə-nəstəliq xətti ilə Şərq istehsalı olan ağ saya yarımahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Nüsxə hicri 1131-ci (m.1719) ildə Mustafa bin Abdullah əl-Kırımi tərəfindən köçürülmüşdür.

**11. Minhəc ət-talibin (منهاج الطالبين)**

Müəllif Əbu Zəkəriyyə Yəhya bin Şərəf bin Hüseyn ən-Nəvəvi Mühyəddin İslam Elm aləminin ən məşhur alimlərindən biri olmuşdur. Şafii fiqhində, hədis elmində böyük alim olan ən-Nəvəvi hicri 631-ci (m.1234) ilin məhərrəm ayında Şamın Şərq tərəfində yerləşən Havran qəsəbəsində Nəva adlanan yerdə anadan olmuşdur. Daha çox İmam Nəvəvi kimi tanınan alim sonralar Şama gələrək ər-Rəvahiyyə adlı mədrəsəyə daxil olur. Bu mədrəsədə elmə olduqca böyük həvəs göstərir. Dörd ayın ərzində "ət-Tənbih" adlı əsəri, sonra isə "əl-Mühəzzəb" əsərinin dördə birini əzbərləyir. Dərs verməklə bərabər əl-Əşrəfiyyə mədrəsəsində Daru`l-hədisində məşihət (rektorluq) məqamına yüksəlmişdi. İmam Nəvəvi hicrətin 676-cı (m.1277) ildə Nəvada vəfat etmişdir. Vəfat etdiyi vaxt yaşı 45-ə çatmışdı. Bu qısa ömür ərzində həyatını ibadət, itaət, öyrənmək və oyrətməklə keçirmişdi. O, fiqh, hədis və ərəb dilçiliyi sahəsində çoxsaylı əsərlərin müəllifidir. Onun "əl-Minhəc fi şərhi səhihi Muslim İbnu əl-Həccac", "əd-Dəqaiq alə minhəc", "Təhzib əl-əsmai və əl-lüğət", "Minhəc ət-talibin", "Bustan əl-arifin", "Riyaz əs-salihin min kəlami Seyyid əl-Mursəlin", "əl-Məqasid", "əl-Mənsurat", "Muxtəsər ət-tibyən", "Ravlat ət-talibin", "Tıbyan fi ədəbi həmələt əl-Quran" və s. əsərləri vardır (8, IV, s.96-97)

"Minhəc ət-talibin" əsərini İmam Nəvəvi hicri 699-cu (m.) ildə yazmışdır. O , bu əsər İmam Qazalinin "əl-Vəciz" əsərinə Rafii Qəzvininin (v.623/1226) yazdığı "əl-Mühərrir" adlı şərhinin müxtəsərini yazmışdır. Şafii hüquq məktəbinin alimləri bu əsərə 40-a qədər şərh və müxtəsər yazmışdır .

Əlyazma qara mürəkkəblə nəsx xətti ilə Şərq istehsalı olan noxudu rəngli kağızda ərəb dilində yazılmışdır. 1a vərəqində vəqf haqqında müxtəlif məzmunlu qeydlər vardır. Abidə hicri 976-cı (m.1570) ildə köçürülmüşdür.

**12.Şərh Dəqaiq əl-lafz əl-Minhəc ( شرح دقائق الفاظ المنهاج)**

Əsərin müəllifi Əbu Zəkəriyyə Yəhya bin Şərəf ən-Nəvəvi`nin "Minhəc ət-talibin" əsərinin kəlmələrini açıqlamaq üçün kiçik həcmli "Şərh əd-dəqaiq əl-lafz əl-minhəc" adlı əsər də yazmışdır.

Əlyazma qara mürəkkəblə nəsx xətti ilə Şərq istehsalı olan noxudu rəngli kağızda ərəb dilində yazılmışdır. Mətn məcmuənin 222b-227b vərəqlərini əhatə edir. Abidə hicri 853-cü (m.1449) ildə Əhməd bin Əbdülvahab Baxmalsat tərəfindən köçürülmüşdür.

**13.Kitab təhrir ət-tənbih ( كتاب تحرير التنبيه)**

Əsərin müəllifi Əbu Zəkəriyyə Yəhya bin Şərəf bin Hüseyn ən-Nəvəvi Mühyəddin məşhur alimlərindən biri olmuşdur. Şafii fiqhində, hədis elmində böyük alim olan ən-Nəvəvi hicri 631-ci

(m.1234) ilin məhərrəm ayında Şamın Şərq tərəfində yerləşən Havran qəsəbəsində Nəva adlanan yerdə anadan olmuşdur. Onun "əl-Minhəc fi şərhi səhihi Muslim İbnu əl-Həccac", "əd-Dəqaiq alə minhəc", "Təhzib əl-əsmai və əl-lüğət", "Minhəc ət-talibin", "Bustan əl-arifin", "Riyaz əs-salihin min kəlami Seyyid əl-Mursəlin", "əl-Məqasid", "əl-Mənsurat", "Muxtəsər ət-tibyən", "Ravlat ət-talibin", "Tıbyan fi ədəbi həmələt əl-Quran" və s. əsərləri vardır. İmam Nəvəvi hicrətin 676-cı (m.1277) ildə Nəvada vəfat etmişdir ( 9, IV,s. 96-97) .

Əlyazma Əbu Zəkəriyyə Yəhya bin Şərəf ən-Nəvəvi`nin Əbu İshaq əş-Şirazinin Şafii hüququna dair "Tənbih" adlı əsərinin şərhidir. Abidə qara mürəkkəblə nəsx xətti ilə Şərq istehsalı olan ahərlənmiş noxudu rəngli kağızda ərəb dilində yazılmışdır. Abidə hicri 844-cü (m.1340) ildə M əhəmməd bin Abdullah Osman əş-Şafii tərəfindəm köçürülmüşdür.

Tədqiqatçıların nəzərinə çatdıraq ki, təqdim etdiyimiz əlyazma nüsxə Əbu Zəkəriyyə Yəhya bin Şərəf ən-Nəvəvi`nin əsərlərinin ən qədim əlyazma nüsxələrindəndir.

**14. Əl-Ənvar li-əməl əl-əbrar (الانوار لاعمال الابرار )**

Əsərin müəllifi olan Cəmaləddin Yusif bin İbrahim əl-Ərdəbili (v.776/1374 vəya 799/1396) həyatı haqqında məlumat çox azdır. O, Şafii hüquq məktəbinin nümayəndəsi olub, "əl-Ənvar əl-əməl əl-əbrar" adlı əsərin müəllifi kimi məşhurdur. Hicri 741-ci (m.1340) ildə yazdığı 74 kitabdan ibarət bu əsərdə alim ancaq Şafii hüquq məktəbinə dair hökmlərdən bəhs edir. Bir çox əlyazma kitabxanalarında əsərin nüsxələri mühafizə edilir. Əsər Qahirədə iki cild olaraq nəşr edilmişdir. Əsərə çoxsaylı şərh və haşiyə də yazılmışdır. Əl-Ərdəbilinin bu əsərdən başqa Bəğavinin "Məsabih əs-sünnə" əsərinə yazdığı şərhi də vardır (9,IX,s.282 ).

Əlyazma qara mürəkkəblə gözəl şikəstə-nəstəliq xətti ilə Şərq istehsalı olan və nəmişlikdən rəngi dəyişmiş ag rəngli ahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Əbdülqəni Nuxəvi kolleksiyasından olan əlyazma əvvəldən naqisdir. Əlyazmanın son vərəqində ilk sahibi İsmayıl adlı biri olduğu haqqında qeyd vardır. Abidə hicri 821-ci (m.1418) ildə Can əd-Damğanı tərəfindən köçürülmüşdür.

**15. Təlim əs-salət ( تعليم الصلوة )**

Əsərin müəllif Abdunnafi əş-Şirvani əl-Ağdaşinin həyat və yaradıcılığı haqqında mənbələrdə məlumat azdır. Alim əslən Ağdaşdan olub, sonralar Şəkiyə köçmüşdür. O, təxminən XVII əsrin sonu, XVIII əsrin əvvəllərində yaşamışdır. Əl-Ağdaşinin Əlyazmalar İnstitutunda namaz təliminə dair "Təlim əs-salət" adlı əsərinin 30 nüsxəsi qorunmaqdadır (4.s.102).

Əlyazma qara mürəkkəblə nəsx xətti ilə Avropa istehsalı olan noxudu rəngli ahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Quran ayələrinin üstündən qırmızı mürəkkəblə xətt çəkilmişdir. Mətn məcmuənin 1b-43b vərəqlərini əhatə edir. Əlyazmanın vərəqlərində sahibinin(عبده الراجى يوسف) Əbduhu ər-Raci Yusifin adı həkk olunmuş möhürlər basılmış, hicri 1151 (m.1738) və 1157 (m.1744) –ci il tarixləri qoyulmuşdur.Abidə hicri 1120-ci (1708) ildə Cəbrail Kərim bin İbrahim Göglər tərəfindən köçürülmüşdür.

**16. əl-Qaidət əl-İsmaliyyə fi ilm əl-fəraiz ( القاعدة الاسماعيلية فى علم الفرائض )**

Əsərin müəllifi İsmayıl bin Məhəmməd əl-Alıcı Azərbaycanın Quba rayonunun Alıc kəndindən olub, XVIII əsrdə yaşamış məşhur alim Məhəmməd bin İbrahim əl-Alıcının oğludur. Ömrünün sonuna qədər Qubada yaşayan alimin "Fəraiz İsmailiyyə" və "Müxtəsər fi əl- fiqh" adlı əsərləri vardır. İsmayıl əl-Alıcı haqqında bu qısa məlumatları Alıc kəndində ezamiyyətdə olduqda toplaya bilmişik.

Əlyazma qara mürəkkəblə nəstəliq xətti ilə Şərq istehsalı olan ag saya ahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Fəraizə dair abidənin mətni məcmuənin 7b-36b vərəqlərini əhatə edir. Abidə hicri 1275-ci (m.1858) ildə Qubanın Digah kəndində Həsən Əfəndi mədrəsəsində köçürülmüşdür.

**17. Xəzain fi əl-usul الاصول**

Əsərin müəllifi dövrünün məşhur fəqih, üsulçu və mütəkəllimi olmuş Ağa ibn Abidin ibn Ramazan ibn Zahid əd-Dərbəndi əş-Şirvani ət-Təbrizidir. Onun fiqhə dair bir çox əsərləri vardır. Bu əsərlərdən "Xəzain fi əl-üsul", "Şəhr əl-mənzum" kimi əsərlərini nümunə göstərmək olar. Alim 1286-cı (m.1869) ildə Təbrizdə vəfat etmişdir (3,II,s.245).

Əlyazma avtoqraf olub, qara rəngli mürəkkəblə şikəstə xətti ilə Avropa istehsalı olan filiqranlı noxudu rəngli ahərlənmiş kağızda ərəb dilində yazılmışdır. Quran ayələri iri nəsx xətti ilə qeyd olunmuşdur. Əvvəli naqis olan abidə hicri 1258-ci (1842) ildə yazılmışdır.

.

**18. Şərh alə əl-fiqh (شرح على الفقه)**

Əsərin müəllifi "Molla Mirzə" və "Müdəqqiq Şirvani" ləqəbləri ilə tanınmış Məhəmməd Şirvanidir. Məhəmməd ibn Həsən Şirvani Şirvanda anadan olsa da, ömrünün çox hissəsini o dövrün dini elmlər mərkəzlərinin ən qabaqcıllarından sayılan İsfahan şəhərində keçirtmişdir. Molla Mirzə Çəfəri hüququnun məşhur alimlərindən olub, bir çox əsərləri vardır. Məhəmməd Şirvani hicri 1098, yaxud 1099-cu ilin ramazan ayının 29-da (miladi təqvimlə təqribən 1687-1688-ci illər) İsfahanda vəfat etmiş, cənazəsi Məşhəd şəhərinə aparılaraq, Mirzə Cəfər mədrəsəsinin sərdabəsində dəfn olunmuşdur. Şirvani özündən əvvəlki alimlər tərəfindən qələmə alınmış bəzi məşhur əsərlərə şərh və haşiyə yazmışdır. Təsvir edilən əlyazma Molla Mirzənin fiqhə dair yazdığı haşiyələrdən biridir ( https://az.wikipedia.org/wiki/Mirze).

Əlyazma qara mürəkkəblə şikəstə-nəstəliq xətti ilə Rusiya istehsalı olan filiqranlı mavi rəngli kağızda ərəb dilində yazılmışdır. Mətn məcmuənin 132b-200b vərəqlərini əhatə edir. Əsəri köçürən tərəfindən 25a və 50b vərəqlərində "Xüsusi vəqf" və "Bu vəqf kitabı Axund Molla Rəfidən övladlarına" məzmunlu vəqf qeydləri yazılmışdır.

Beləliklə, bu məqalədə əksini tapan araşdırma AMEA Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən fiqhə dair əsərlərin əlyazma nüsxələrinindən bəhs edir. Nümunə olaraq dünya əlyazmalar kitabxanalarında istər tarix, istərsə də tərtibat baxımından nadir rastlanan nüsxələr təqdim edərək, onların daha geniş tədqiqatlara cəlb edilməsini təmənni edirik.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1.Mahmudov M. Ərəbcə yazmış Azərbaycanlı şair və ədiblər. Baku, 2006
2.Süleymanova, Nailə. İlahiyyata dair əlyazmalar kataloqu. 3 ciltte. Bakı, 2016,2019
3.Süleymanova, Nailə. Qarabağlı müəlliflərin əlyazma əsər kataloqu. Bakı, 2024
4.Şərifli K.Azərbaycan əlyazma kitabı və kitabxanaları. Bakı, 2009

**Türk dilində:**

5.Bursalı M.T. Osmanlı Müellifleri. 3 cilt. İstanbul, 1333/1915
6.İslam Ansiklopedisi. 42 cilt. İstanhbul 1996-2013
7.Süreyye M. Siccil Osmaniyyə. 3 cild.İstanbul, 1311/1893
8.Şeyhi Mehmed Efendi, Fındıklı İsmet Efendi. Şekaik-i Nu`maniye ve Zeyileri. 5 cild. İstanbul, 1898

**Ərəb və fars dillərində:**

9. Kəhhali Ö.R. Mucəmul-muəllifin. IV cild. Beyrut, 1414/1993
10.Zirikli X. əl-Aləm.8 cild.Beyrut,2002.

***Azərbaycan Turizm və Menecment Universiteti**
***ilahiyyat üzrə fəlsəfə doktoru, dosent***
***E-mail: naila.suleymanova@atmu.edu.az***

**Naile Suleymanova**

## RARE MANUSCRIPTS OF WORKS ON ISLAMIC LAW

Manuscripts are the inexhaustible wealth of every country. These manuscripts, which differ in both their date of writing and their content, never lose their value and, on the contrary, are the most interesting and interesting objects of scientific research.

Numerous valuable works on Islamic law have been written in various languages in all the areas where Muslims live, which have not lost their scientific importance even today. Many of these works have survived to this day in manuscript form and are preserved in many famous manuscript libraries and institutes around the world. One of such places is the Fuzuli Institute of Manuscripts of the Academy of Sciences of Azerbaijan. In this article, we will discuss rare and exquisite copies of works written in Arabic, Persian and Turkish on Islamic law, which are preserved in the Fuzuli Institute of Manuscripts of the Academy of Sciences of Azerbaijan. Of course, these works have great scientific importance in the field of Islamic law and are notable rare examples of scientific research by prominent scholars of the Middle Ages. On the other hand, the manuscripts we have included in the study, due to their paleographic characteristics, also have a special value as exquisite copies of handwritten book art.

It should not be forgotten that prominent Azerbaijani scholars, starting from the Middle Ages, have shown great interest in Islamic law, which is closely related to the education and lifestyle of the people, as a field of science, and have been engaged in its research. Azerbaijani scholars have enriched Islamic law as a field of science by writing works covering various schools of Islamic law, and have rendered valuable services in its development.

**Keywords:** *Azerbaijan, manuscript, exquisite, copy, law*

**Наиля Сулейманова**

## РЕДКИЕ РУКОПИСИ ТРУДОВ ПО ИСЛАМСКОМУ ПРАВУ

Рукописи – неисчерпаемое сокровище каждой страны. Эти рукописи, различающиеся как по дате написания, так и по содержанию, никогда не теряют своей ценности и, напротив, являются интереснейшими объектами научного исследования.

Многочисленные ценные труды по исламскому праву были написаны на разных языках во всех регионах проживания мусульман, и их научное значение не утрачено и сегодня. Многие из этих трудов сохранились до наших дней в рукописях и хранятся во многих известных библиотеках и учреждениях мира, хранящих рукописи. Одним из таких мест является Институт рукописей имени Физули Академии наук Азербайджана. В данной статье мы рассмотрим редкие и изысканные копии произведений по исламскому праву, написанных на арабском, персидском и турецком языках, хранящиеся в Институте рукописей имени Физули Академии наук Азербайджана. Безусловно, эти труды имеют большое научное значение в области исламского права и являются яркими примерами научных исследований выдающихся учёных средневековья. С другой стороны, включённые нами в исследование рукописи, благодаря своим палеографическим характеристикам, представляют особую ценность и как изысканные образцы искусства рукописной книги.

Не следует забывать, что видные азербайджанские учёные, начиная со Средних веков, проявляли большой интерес к исламскому праву как к области науки, тесно связанной с образованием и образом жизни народа, и занимались его исследованиями. Азербайджанские учёные обогатили исламское право как область науки, написав труды, охватывающие различные школы исламского права, и внесли ценный вклад в его развитие.

**Ключевые слова:** *Азербайджан, рукопись, изысканный, копия, право*

*Filologiya elmləri doktoru Akif İmanlı tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**